Azərbaycan Arxeologiyası
Khazar University Press
Volume 25 № 2 2022, 63-79
DOI: 10.5782/2218-0346.2022.25.2.63

# Qafqaz Albaniyasının maddi mədəniyyətinin öyrənilməsində Qəbələ arxeoloji qazıntılarının rolu

**Laçın Mustafayev**
AMEA Milli Azərbaycan Tarixi Muzeyi
qafqaz8310@rambler.ru

**Ülviyyə Səfərova**
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu
samkhet@mail.ru

**Açar sözlər:** Keramika, oval tikili, inşaat, təsərrüfat, antik mədəniyyətin təsiri.

Qafqaz Albaniyası tarixinin və maddi mədəniyyətinin öyrənilməsi Azərbaycanda arxeologiya elminin yaranması və inkişafı ilə sıx bağlıdır. Bu prosesdə Qafqaz Albaniyasının paytaxtı olmuş qədim Qəbələ şəhərinin arxeoloji qazıntıları mühüm rol oynamışdır.

Albaniya (Qafqaz Albaniyası), o cümlədən Qəbələ (Kabalaka) haqqında olan yazılı məlumatlar qədim yunan və Roma mənbələrindən qaynaqlanır. Böyük Plininin (b.e. I əsri) "Təbii tarix" əsərində Kabalaka Albaniyanın mərkəzi şəhəri kimi təqdim edilmişdir (*"praevalent oppida Albaniae Cabalaca"*) *(H.N. VI.29)* (21, s. 297). Klavdi Ptolomeyin (b.e. II əsri) "Coğrafiya"sında isə Qəbələnin adı Albaniyanin 29 yaşayış məntəqəsinin sırasında Xabala kimi qeyd olunmuşdur (20, s. 354). Antik mənbələrdən Qəbələ ilə bərabər Albaniyanın toponimləri və hidronimləri, eyni zamanda ölkənin təsərrüfat həyatı, əhalisi və təbiəti haqqında dəyərli və zəngin məlumatlar əldə etmək mümkündür (20, s. 231-257; 24, s. 466-501). Ümumiyyətlə, yunan və Roma mənbələri ilə yanaşı, Suriya, gürcü, alban, fars və ərəb mənbələrində Albaniya haqqında kifayət qədər zəngin məlumatlar vardır. Arxeoloji qazıntılar zamanı aşkar edilən abidə və artefaktların elmi təhlilinin aparılmasında antik mənbələrin müstəsna rolu vardır.

XIX-XX əsrlərdə yaşamış F.K.Kruze, A.Q.Yanovskiy, A.E.Krımskiy, S.V.Yuşkov, V.N.Leviatov kimi rus və sovet alimlərinin əsasən antik və orta əsrlərə aid olan mənbələr əsasında yazılmış əsərlərində Qəbələnin qədim tarixindən də söz açılır (13, s.10-14).

**Qəbələnin arxeoloji öyrənilməsi tarixindən.** Qəbələnin ilkin qazıntıları əsasən kəşfiyat xarakterli olmuş, yalnız yerüstü material və informasiya toplamaq məqsədi daşımışdı. Kiçik həcmli, ilk qazıntı işləri XIX əsrin əvvəllərində Çuxur Qəbələ kəndinin ərazisində yerləşən qədim şəhər xarabalığı ərazisində aparılmışdır. Bu qazıntılar sırasında D.M.Şərifovun 1926-cı ildə Qəbələ rayonunda apardığı arxeoloji tədqiqatlar daha məhsuldar olmuş və yeniliklərlə diqqəti cəlb etmişdi. Qəbələ qazıntılarının Azərbaycan arxeologiyası üçün nə dərəcədə əhəmiyyət kəsb etməsi D.M.Şərifovun tədqiqatlarından sonra gündəmə gəlmişdir. Nic Abdallı kəndi yaxınlığındakı Yaloylutəpə abidəsi ilə yanaşı (25) D.M.Şərifov Qala ərazisində 8 şurf qoyaraq qədim Qəbələnin 3 mədəni təbəqəsini müəyyən etmişdi. Həmin təbəqələr arasında ümümi qalınlığı 2,5 m olan ən alt mədəni təbəqə öz zənginliyi ilə seçilirdi. D.M.Şərifovun fikrincə Plininin Qəbələsi məhz burda yerləşirdi (26, s. 183). Bu fikirlə razılaşan Ö.Ş.İsmizadə arxeoloji materialların analizi əsasında qədim Qəbələnin ən alt mədəni təbəqəsini antik dövrə aid etmişdi (18, s. 35).

Qəbələdə stassionar arxeoloji qazıntıların aparılması Azərbaycan SSRİ Elmlər Akademiyasının Tarix İnstitutu tərəfindən verilən qərardan sonra baş tutur. Albaniyanın tarixini əsaslı səkildə öyrənmək üçün verilmiş həmin qərarda əsasən üc abidədə, o cümlədən onun paytaxtı və mühüm ticarət mərkəzlərindən biri olan Qəbələ şəhəri ərazisində tədqiqat və arxeoloji qazıntıların aparılması nəzərdə tutulmuşdu. 1959-cu ildə arxeoloq-alim S.M.Qazıyevin rəhbərliyi altında Qəbələ arxeoloji ekspedisiyası fəaliyətə başlayır. Qəbələnin bir neçə abidəsində S.M.Qazıyevlə bərabər müxtəlif illərdə Ö.Ş.İsmizadə, Q.M.Əhmədov, F.V.Qədirov, İ.A.Babayev, Q.C.Cəbiyev və digər tədqiqatçılar Azərbaycan arxeologiyasının və maddi mədəniyyətinin öyrənilməsi istiqamətində geniş araşdırmalar aparmışlar. Azərbaycan elminə sayagəlməz töhvələr verən qədim Qəbələ şəhərindəki məhsuldar arxeoloji tədqiqatlar bu gündə davam etdirilməkdədir. Son illər ərzində qazıntılar əsasən antik və orta əsrlər, eyni zamanda eneolit dövrü Leylatəpə mədəniyətinə aid Qalayeri yaşayış yerində (11, s. 24, 39-40, 42-43, 103-109, 173-179 və s.) və tunc dövrlərini əhatə edən arxeoloji abidələrdə aparılır. Qəbələdə daş dövründən başlayaraq (10, s. 38-44; 12, s. 18-37) son orta əsrlərədək müxtəlif ərazilərdə intensiv həyatın, ən əsası isə şəhər həyatının (Antik şəhər e. ə. IV - b. e. I əsrlər, Səlbir I - XI əsrlər, Qala I - XVIII əsrlər) olmasını təsdiq edən tarixi-arxeoloji abidələr vardır (7, s. 59-60). Sözü gedən qədim şəhər yerləri Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun ərazisinə daxildir.

**Antik Qəbələ şəhərinin arxeoloji tədqiqi.** Qəbələdə arxeoloji tədqiqatlar başlanan vaxtdan antik şəhər yerinin müəyyən edilməsi istiqamətində aparılan axtarışlar ilk əvvəl Çuxur Qəbələ kəndi ərazisində yerləşən Səlbir və Qala adlı abidələri əhatə etmişdir. Lakin burada mədəni təbəqənin dövrü eramızın ilk əsrlərinə (son antik – erkən orta əsrlərə) aid olduğundan, Antik Qəbələnin axtarışı davam etdirildi.

Səlbir və Qaladan təxminən 2 km şərqdə Qaraçayla Qoçalançay arasında yerləşən "Çaqqallı düzü" deyilən ərazidə traktorla təsərrüfat işləri görülən zaman qədim tikili qalıqları aşkar edilmişdir. Həmin ərazidə 1959-cu ildə tədqiqat qazıntıları nəticəsində arxeoloqlar monolit daşdan yonulmuş iki ədəd sütunaltlığı və iri kirəmit qalıqlarını aşkar etdilər. Kiçik həcmli qazıntı işləri aparılsa da, abidənin xarakterini müəyyənləşdirmək mümkün olmadı. Müqayisəli təhlil əsasında belə güman edildi ki, həmin ərazi Qəbələ şəhərinin məbədlər yeri (temenos) olmuşdur (3, s. 9).

Yeni ərazidə ("Çaqqallı düzü"ndə) əsaslı və davamlı arxeoloji qazıntı işlərinə böyük ehtiyac duyulurdu. 1967-ci ildə arxeoloq İ.A.Babayevin təşəbbüsü ilə arxeoloq S.M.Qazıyevin rəhbərlik etdiyi Qəbələ ekspedisiyası bu sahədə geniş qazıntı işlərinə başlayır və tədqiqatlar öz bəhrəsini verir (1, s. 16-18). Antik şəhər yerindəki geniş və əsaslı tədqiqatlar AMEA-nın müxbir üzvü, t.e.d., prof. İ.A.Babayevin adı ilə bağlıdır. İ.A.Babayev ömrünün 55 ilini Qafqaz Albaniyası tarixinin öyrənilməsinə həsr etmiş və Azərbaycan elminə yeniliklər gətirmişdir. Bunların arasında Azərbaycan ərazisində dövlətin meydana gəlmə səbəbləri, Albaniya dövlətinin formalaşma prosesinin öyrənilməsi, pul dövriyyəsinin yaranması, onun mərkəzi şəhərinin müəyyən edilməsi, şəhər infrastrukturunun yaranması, inkişafı, yeni tikinti texnologiyalarının formalaşması və s. qeyd etmək lazımdır (13).

Qəbələnin Antik şəhər yerində arxeoloji qazıntılar 1967-1990 və 2005-2017-ci illər ərzində qədim şəhərin əhatə etdiyi 50 hektardan çox sahəsinin müxtəlif yerlərində (beş qazıntı sahəsində) aparılmışdır (şək. 1), (8, s. 48-51). Şəhər xarabalıqlarında aparılan qazıntılarla yanaşı, ətraf ərazilərdə də kəşfiyyat işləri görülmüş, antik dövrə aid qəbirlər izlənilmişdir (9, s. 408, 412). 2013-cü ildə Antik şəhər yerinin şimali – şərq hissəsində təsərrüfat-tikinti işləri zamanı e.ə. IV-III əsrlərə aid dağıdılmış qəbirlər tədqiq edilmişdir. Bu qəbirlərin birindən 1ədəd küp, 2 ədəd iki qulplu kiçik ölçülü küp (küplərdən biri Əhəməni dövrü üçün əlamətdar olan, üzəri ağımtıl cızma zo-

laqlarla naxışlanan keramika nümunəsidir), orta və kiçik ölçülü dəmir bıçaqlar, antik dövr üçün nadir tapıntı olan iki uclu döyüş yabası və 1 ədəd əhəməni tipli zərif və yaxşı bişirilmiş cam aşkar edilmişdir (9, şək. 8-10, s. 409).

İlkin faktlara və mədəni təbəqələrin analitik təhlilinə əsasən müəyyən edilmişdir ki, Antik şəhər yerində erkən tunc dövründən (e. ə. III minillik) etibarən yaşayış formalaşmış (13, s. 59), lakin bir qədər sonra burada həyat kəsildiyindən son tunc – erkən dəmir dövrünə qədər uzunmüddətli fasilə yaranmışdı. Yalnız e.ə. V-IV əsrlərdə bu sahədə Qəbələ şəhəri meydana gəlmişdir (8, s. 49; 23, s. 15). Qeyd etmək lazımdır ki, bütün Qafqaz ərazisində aparılan arxeoloji qazıntılar göstərir ki, bu ərazidə aşkar edilən antik dövrə aid yaşayış yerlərinin bir çoxu tunc dövrü yaşayış yerlərinin üstündə formalaşıb (6, s. 371; 13, s. 23). 2012-ci ildə III qazıntı sahəsində ellinizm dövrünə aid mədəni təbəqənin altında son tunc-ilk dəmir dövrünə aid mədəni təbəqə aşkarlandı. Maddi mədəniyyət qalıqları çaxmaqdaşı və obsidian qəlpələrindən, dən daşlarının hissələrindən, keramika fraqmentlərindən, qalın divarlı, çiyninə qədər yerə basdırılmış bozumtul qara rəngli təsərrüfat küplərindən ibarətdir. Buna qədər Antik şəhər yerindən bu dövrün artefaktlarına təsadüf edilməmişdir (6, s. 372). 2013-2015-ci illərdə IV qazıntı sahəsində aparılan qazıntılar nəticəsində də alt təbəqənin tamamilə son tunc – erkən dəmir dövrünə aid olduğu məlum oldu. Aşkar olunan tapıntılar sırasında daş toxaları, müxtəlif tipli gil qabları, obsidian qəlpələrini, boğazlarına qədər yerə basdırılan təsərrüfat küplərini qeyd etmək olar. Həmin dövrə aid ən mühüm tapıntı isə taxıl saxlamaq üçün istifadə olunan çoxsaylı təsərrüfat quyuları oldu (şək. 2), (9, s. 411; 8, s. 49-50).

Ümumilikdə Antik şəhər ərazisində aparılan çoxillik stasionar və davamlı arxeoloji qazıntılar nəticəsində xronoloji olaraq yuxarıda göstərildiyi kimi üç mərhələdə yaşayışın olduğu təsbit edilmişdir: 1) Erkən tunc, 2) Son tunc – erkən dəmir, 3) Antik dövr. Bəzi məsələlər tarixi proseslərin təhlil və çözülməsində bir qədər mübahisə yaradır. İlk olaraq Antik şəhər yerində (Çaqqallı) erkən tunc dövründə yaşayışın yarandığı, böyük fasilədən sonra son tunc – erkən dəmir dövründən həyatın yenidən canlandığı məlumdur. Bu faktı indiyədək aşkar olunan arxeoloji tapıntılar əsasında təsbit etmək mümkündür.

Maraqlı, eyni zamanda sual doğuran məsələlərdən biri budur ki, e.ə. V-IV əsrlərdən əvvəl, xüsusilə Midiya və Əhəmənilər dövründə (e.ə. VIII əsrin sonu, VII-V əsrlər ərzində) bu ərazilərdə yaşayış hansı səviyyədə olmuşdur. Bütün tarixi araşdırmalarda Qafqaz Albaniyasının tarix səhnəsinə

çıxması e.ə. IV əsrdən etibarən göstərilir. Belə olduğu təqdirdə, Antik şəhər ərazisində yaşayışın yenidən başlanması hansı səbəblə bağlı olmuşdur. Bu suallara fərqli prizmadan yanaşmaq olar. Daha aktual olan elmi izah belədir ki, Albaniya dövlətinin yaranmasına qədər burada olan yaşayış nəzərə çarpacaq dərəcədə olmamış, daha sonra e.ə. IV əsrin ikinci rübündən etibarən sürətlə böyüyərək o dövr üçün kifayət qədər nəhəng şəhərə çevrilmişdir. Bir variantı da fərziyyə kimi irəli sürmək olar ki, Albaniya yarandığı təqdirdə şəhər kimi Kabalaka qəfildən formalaşmışdır.

Bir faktı da nəzərə çatdıraq ki, e.ə. VII-V əsrlər üçün xarakterik olan tapıntılar Antik şəhər yerində demək olar ki, çox az rast gəlinir. Digər bir məsələni də diqqətdən qaçırmaq olmaz: 50 hektardan çox sahəni əhatə edən Antik şəhər ərazisinə mərkəz rolunu oynayacaq şəhər formalaşdırmaq üçün e.ə. IV əsrdən etibarən kütləvi əhalinin axını və yerləşməsi (köçməsi) məntiqli sayıla bilməz. Alt təbəqəyə məxsus tapıntıların təyinatı və analitik təhlili göstərir ki, burada oturaq təsərrüfata məxsus əhali yaşamışdır. Deməli nəzəri olaraq, fikir yürütmək olar ki, Antik Kabalaka Albaniyanın mərkəzi şəhəri kimi bir neçə əsrlik fasilədən sonra qəfildən meydana gəlməmişdir. Qeyd edilən problemlərə, suallara aydınlıq gətirilməsi üçün bu ərazilərdə arxeoloji qazıntıların davam etdirilməsi vacibdir. Yeni tarixi faktların təsbit edilməsi, Şimali Azərbaycan ərazisində şəhər və dövlətin yaranma məsələsinə, xronologiyasının dəqiqləşdirilməsinə yeni töhvələr verəcəkdir.

**Antik şəhərin memarlığı və tikinti texnikası.** Qəbələnin Antik şəhər yerində arxeoloji qazıntılar nəticəsində aşkar edilən memarlıq tikili kompleksləri sözügedən dövrdə (e.ə. IV-b.e. I əsrləri) Qafqaz Albaniyasının maddi mədəniyyətinin, memarlığının və tikinti texnikasının öyrənilməsində mühüm rol oynayır.

Antik şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı şəhərin müdafiə səddi, müxtəlif quruluşlu iri ictimai binalar, eyni zamanda kiçik ölçülü tikili qalıqları izlənilmişdir. Binaların tikintisində istifadə edilən materialların hamısı yerli xammaldan ibarətdir. Bir çox tikililərin bünövrəsi çay daşından ibarət olub, divarları müxtəlif ölçülü çiy kərpicdən hörülmüşdür. Dam örtüyü kimi çox güman ağac və adi torpaqdan istifadə edilmişdir. Bəzi tikililərin çox ehtimal ictimai və ya inzibati xarakterli olan bunaların üstü kirəmitlə örtülmüşdür. Hörgü məhlulu kimi ilk dəfə Qəbələ ərazisində Roma ixtirası olan əhəng məhlulundan istifadə edilmişdir (13, s. 86). 2017-ci ildə V qazıntı sahəsində aparılan arxeoloji qazıntılar nəticəsində daha maraqlı bir yeni fakt

müşahidə edilmişdir. Eramızın I əsrinə aid olan 5 №-li oval tipli tikilinin döşəməsində Roma betonunu xatırladan xırda qum və çınqıl qarışıqlı əhəng məhlulu ilə hazırlanmış təbəqə izlənilmişdir (2, s. 229-230). Bu Albaniyanın tikinti texnikasında yeni və antik dövr üçün müasir tikinti texnologiyası üsullarından biri idi.

Antik dövrdə memarlıqda sütun elementindən geniş və səmərəli istifadə olunurdu. Sütunlar iri binaların dam örtüyünü saxlamaqla eyni zamanda tikiliyə xüsusi gözəllik də bəxş edirdilər. Sütunların baza hissəsi yonulmuş daşdan, yuxarı hissəsi isə ağac dayaqdan ibarət olmuşdur. Qəbələdə arxeoloji qazıntılar nəticəsində bir neçə belə sütun altlığı aşkar edilmişdir (3, s. 9-12; 13, s. 92, şək. 15). Lakin baza hissəsi daşdan, dirək hissəsi isə dairəvi hörülmüş kərpiclərdən ibarət sütun qalıqlarına da təsadüf edilmişdir. Bu sütunların çay daşlarından ibarət baza hissəsinin diametri böyük olduğundan onların sütun – dirək hissəsinin çiy kərpiclərdən qurulduğu ehtimal edilir. III qazıntı sahəsindəki 1№-li oval tikilinin 11 bazası aşkar olunmuşdur. 5 №-li oval tikilinin isə mərkəzi hissəsində çiy kərpiclərdən ibarət, dağınıq vəziyyətdə geniş diametrli tikili qalıqları (çevrə formalı) izlənilmişdir (şək. 3), (2, s. 228).

Divarların hörgüsündə istifadə olunan çiy kərpiclərə gəldikdə isə onların müxtəlif ölçülərdə hazırlandığı müəyyən edilmişdir (35x35x5 sm, 39x39x5 sm) (13, s. 69). Son illərdə aşkar edilmiş 5 №-li oval tikilinin inşasında istifadə edilmiş kərpiclərin ölçüsü daha müxtəlifdir: 20x40, 33x36, 36x36, 37x34sm-dir (2, s. 228). Kərpiclərin hündürlüyü isə 12 sm təşkil edir (2, s. 229). Təcrübə göstərir ki, Azərbaycanın antik dövr abidələrinin tikinti texnikasında çiy kərpiclərdən geniş istifadə olunmuşdur (13, s. 98).

Antik və orta əsrlərdə şəhər ətrafındakı müdafiə divarı və istehkamlarının, bürclərin və qalaların qurulmasında müxtəlif çeşidli daşlardan istifadə edilmişdir. Belə qurğuların inşasında istifadə olunan yonulmuş qayadaşı, çaydaşı, həmçinin puç daşlar tikilinin möhkəm və uzunömürlü olmasını şərtləndirirdi. Lakin buna baxmayaraq müxtəlif dövrlərdə, o cümlədən antik dövrdə Albaniyanın mərkəzi şəhəri olan Qəbələnin müdafiə divarları torpaq səddən və çiy kərpicdən inşa edilmişdir (13, s. 65).

Adətən şəhər divarlarının ətrafı xaricdən dərin xəndəklə əhatələnirdi ki, bu da divarı bir qədər də keçilməz edirdi. Antik şəhərin 1300 metrədək müşahidə edilən şəhər divarının torpaq və çiy kərpicdən qurulmasının əsas səbəbi xammalın bolluğu və tez başa gəlməsi ilə əlaqədar idi. Kifayət qədər möhkəm və keyfiyyətli hazırlanan çiy kərpiclərdən enli divarlı müdafiə istehkamlarının və iri binaların tikintisində səmərəli istifadə edilmişdir.

Antik şəhər yerində izlənilən abidələrin unikallığını artıran mühüm faktorlardan biri kirəmitlərin tapılmasıdır. E. ə. III əsrdən etibarən Qəbələdə inşa olunan iri və ictimai xarakterli binaların üzərinin örtülməsində kirəmitdən istifadə edilmişdir. Albaniyanın tikinti texnikasındakı bu yeniliyə ilk dəfə Qəbələdə təsadüf olunmuşdur. Kirəmitlər (solen və kalipter) antik dünya mədəniyyətinin təsiri ilə yerli ustalar tərəfindən istehsal edilmişdir. Bəzi kirəmitlərin üzərində müşahidə olunan möhür və nişan formalı cızıqlar yerli istehsaldan xəbər verir. Tədqiqatçılar Albaniyada aşkarlanan kirəmitlərin Bospor kirəmitləri ilə oxşarlıq təşkil etdiyini qeyd edirlər (13, s. 74-84; 15, s. 48-59).

50 hektardan çox ərazini əhatə edən Antik şəhər yerinin yüksək marağa səbəb olan nadir tapıntılarından biri oval tipli memarlıq tikili kompleksləridir. Onlar Antik şəhər yerinin III, IV və V qazıntı sahələrində aşkar edilmişdir. İndiyədək oval tipli binaların oxşarına nə Qafqazın, nə də Asiyanın həmdövr arxeoloji abidələrində rast gəlinməmişdir. Tədqiqatlar zamanı müəyyən edilmişdir ki, bu tip tikililərin inşası bir neçə əsr ərzində davam etdirilmişdir. Oval tipli bina – tikili yerləri müxtəlif ölçülərdə izlənilmişdir. Bu tip tikililərin tədqiq olunması Azərbaycanın e.ə. IV – b.e. I əsrlərində tikinti texnikasının inkişafında baş verən dəyişiklikləri və yenilikləri izləməyə imkan verir.

1 №-li oval bina yerində arxeoloji qazıntılar 1983-1990-cı illərdə aparılmışdır. Birinci oval bina şimal-cənub istiqamətində yerləşərək, içəridən 19,5x71m ölçülərinə malik olub, hələlik aşkar edilən ən böyük oval tikilidir. 1,8 m enində çay daşından bünövrəyə və 1,6 m enində çiy kərpicdən ibarət divar qalığına malik tikili daxildən divar boyu eni 2,2 m olan səki ilə əhatələnir. Binanın mərkəzi boyu sıra ilə düzülmüş 11-dək sütunun baza hissəsi olduğu ehtimal edilən çay daşlarından ibarət dairə tapılmışdır. Bina e. ə. I – b. e. I əsrlərinə aiddir. Binanın şərq tərəfdən 2 qapısının olması müəyyən edilmişdir. Lakin 2011-ci ildə burada aparılan qazıntılar nəticəsində binanın üçüncü, qərb tərəfdə yerləşən bir qapısı da aşkar edilmişdir (4, s. 213). Burada aparılan tədqiqatlar bu abidənin elmi əhəmiyyətini daha da artırmış, mühafizəyə olan zəruri ehtiyacı nəzərə alınaraq 2014-cü ildə tikili üzərində konservasiya işləri aparılaraq üstü örtülmüşdür (şək. 4), (9, s. 413) .

2 və 3 №-li oval tipli binalar şərq – qərb istiqamətində bir-birinə paralel yerləşmişdir. 2 №-li oval binanın ümumi sahəsi 404 $m^2$ olub, dövrü e.ə. II – I əsrlərə aid edilir. 3 №-li oval tikili daha qədim dövrə (e.ə. III əsrə) aiddir. 3 №-li oval tikilinin qərb tərəfdən baş hissəsi 1 №-li oval tikilinin

divarı altına girir. Bu onu göstərir ki, bu tikili digər analoji tikililərdən erkən inşa olunmuşdur. Bir-birilərinə yaxın məsafələrdə yerləşən bu 3 oval tikilinin tikinti texnologiyası və tikinti məmulatı eynidir. Hər üç binanın bünövrəsi bir cərgə sıra ilə düzülmüş çay daşlarından inşa edilmişdir. Binaların ciy kərpiclərlə hörülmüş divarları bir neçə kərpic hündürlüyündə müşahidə edilə bilir.

2011-ci ildə IV qazıntı sahəsində aparılan qazıntı nəticəsində 4 №-li oval tipli bina aşkar edildi. Üst təbəqədən tapılan bu oval tikili eramızın I əsrində inşa edilmişdir. 4 №-li oval tikilinin bünövrəsi çiy kərpicdən qurulmuş, daxili hissəsində isə çiy kərpiclərdən ibarət divarlardan arakəsmələr və qapı yerləri müşahidə edilmişdir. Bu qazıntı sahəsində hələ 1983-cü ildə aparılan kəşfiyyat zamanı tikili qalıqlarına təsadüf edilmişdir. 2011-ci ildən 2013-cü ilədək aparılan intensiv qazıntılar burada e.ə. III – b.e. I əsrlərini əhatə edən müxtəlif tikili qalıqları, fərqli ölçülü quyular, keramika nümunələri və bir sıra osteoloji fraqmentlərin olduğunu aydın etdi (4, s. 216). III və IV qazıntı sahəsində bünövrəsi çay daşından olan çiy kərpicdən tikilən müxtəlif divar qalıqları da tapılmışdır. Bu tikili qalıqları müxtəlif ölçülərdə qeydə alınmışdır. Göründüyü kimi Antik şəhər yerində eyni dövrdə müxtəlif formalı tikililər mövcud olmuşdur.

Qəbələnin beş qazintı sahəsində tədqiq edilmiş ictimai binalarının rekonstruksiya və restovrasiya olunmuş 3D modelləri müxtəlif kompyuter proqramları vasitəsi ilə həyata kecirilmişdir (19, s. 52-57).

**Antik Qəbələnin təsərrüfatı.** Antik dövrdə Qəbələnin təsərrüfat həyatı haqqında məlumatı qazıntıların materialları əsasında almaq olur. Başqa qədim şəhərlər kimi, Qəbələ də kənd təsərrüfatı üçün əlverişli yerdə yaranmışdı. Qəbələ Böyük Qafqazın cənub ətəklərindəki münbit torpaqlı, bol su ehtiyatına malik ərazidə yerləşdiyindən, onun əhalisi əkinçilik, maldarlıq, bağçılık, üzümçülük, çaxırçılıq, sənətkarlığ və təsərrüfatın digər sahələri ilə məşğul olurdu.

Aşkarlanan maddi-mədəniyyət qalıqları arasında çoxsaylı təsərrüfat quyuları daha böyük əhəmiyyət daşıyır. IV qazıntı sahəsində müşahidə olunan dairəvi və oval formalı quyular şəhər əhalisinin təsərrüfat ehtiyacları üçün istifadə edilirdi. Qazıntılar zamanı dairəvi quyuların birində 50 sm qalınlığında yanıb kömürləşmiş taxıl qalıqları aşkar edilmişdir (9, s. 407). Yaponiyada edilen radiokarbon analizlərinin nəticələrinə əsasən yanmış taxıl arpa toxumu idi, dövrü isə e.ə.I – b.e.I əsrlərinə aiddir. Arpa toxumu ilə yanaşı iki növ noxudun dənləri də müəyən edilmişdir.

Şəhərin təsərrüfat həyatı ilə bağlı nadir tapıntılardan biri e.ə. IV-III əsrlərə aid iri təsərrüfat anbarıdır. Burada 200-dən artıq təsərrüfat küpünün yeri və qalıqları aşkarlanmışdır (şək. 5). Çiyninə qədər yerə basdırılmış küplər göyümsov daş qapaqlarla örtülmüşdür. Bu küplərdə şərabın saxlandığı, küplər çatlayandan sonra sonra isə müxtəlif meyvə qurularının toplanması üçün istifadə olunduğu müəyyən edilmişdir. Yerə basdırılmış küp yanından oynoxoyyanın (şərab qabının) tapılması anbarın şərabçılıqla bağlı olduğunu təsdiq edir. Bəzi küplər istifadəyə yararlı vəziyyətdə yerdən çıxarılmış, digərləri isə oradaca məhv olmuşdur. Anbar əhəmiyyətini itirdikdən sonra yerində zaman keçdikcə başqa tikililər inşa edilmişdir. 2 №-li oval binanın alt təbəqəsində yerləşən və tikilinin divarı altından şimala doğru genişlənən təsərrüfat anbarı həcminə görə antik dövr üçün Qafqazda aşkarlanan yeganə iri saxlanc mənbəyidir (6, s. 367-368). Qazıntılar zamanı belə nəhəng anbarın ətrafında heç bir divar qurğusuna təsadüf edilməmişdir. Bu özlüyündə olduqca maraqlı və nadir hallarda təsadüf edilən hadisələrdən biridir. Nəticə etibarı ilə belə qənaətə gəlmək olar ki, anbarın heç bir tərəfdən divarı olmamışdır. Eyni zamanda küplərin ümumi formada üzərini örtən heç bir qurğuya da rast gəlinməmişdir. Küplər sadəcə düz yerdə sıralanaraq, çox güman ki, üzəri primitiv üsulla (qamış və s.) örtülmüşdür. Toplanılan təsərrüfat küplərinin qalıqları ətrafında mülahizə yürüdərək, onların təxmini hündürlüyünün 1 m və ya bir qədər çox, diametrlərinin isə 30-40 sm-dən 100 sm-dək fərqli ölçülərdə dəyişdiyini söyləmək mümkündür. Küplərin basdırıldıqları çuxurları təhlil etdikdə də nəticənin doğru olduğu aydın olur. Nəticə etibarı ilə bu tapıntının ötürdüyü informasiyanı təhlil etdikdə, onun həm tarixi, həm də arxeoloji nöqteyi nəzərindən nə dərəcədə dəyərli olmasını qeyd etməmək mümkün deyildir. Birincisi bu tapıntı antik dövrdə Albaniya əhalisinin məşğuliyyəti, kənd təsərrüfatının, xüsusilə bağçılığın kifayət qədər inkişaf etdiyini göstərir. İkincisi kənd təsərrüfatı məhsullarının emalı, yəni əldə edilən məhsuldan ikinci məhsulun – şərabın alınması prosesidir. Üçüncüsü, antik mənbələrdə Albaniyanın təbiəti, əhalinin təsərrüfat fəaliyyəti, ticarət münasibətləri barəsində verilən məlumatları arxeoloji tapıntılarla qarşılıqlı müqayisə edərək reallığı əks etdirdiyini qeyd etmək olar. Dördüncüsü saxsı istehsalının yüksək inkişaf etdiyi aydın şəkildə izlənilir. Eyni zamanda qazıntı prosesində oynoxoyya tipli qab fraqmentlərinin tez-tez tapılması antik dünya ölkələri ilə olan sıx əlaqələrin və maddi mədəniyyətimizə təsirinin bariz göstəricisidir. Nəhayət beşincisi, anbarın həcmi sosial durumun, əhali sıxlığının və ictimai münasibətlərin, o cümlədən şəhər infrastrukturunun səciyyəvi xüsusiyyət və

əlamətlərini dərk etməyə imkan verir. Antik şəhərin əhalisi təsərrüfat ehtiyacları üçün təsərrüfat quyuları ilə bərabər küplərdən də istifadə edirdi.

Qeyd etdiyimiz son tunc-erkən dəmir dövrünə aid mədəni təbəqədə sıra ilə düzülmüş onlarla təsərrüfat quyusu açılmışdır. Diametrləri 1 – 1,7 metr arasında dəyişən və dərinliyi 2 metrə çatan bu təsərrüfat quyularında taxıl ehtiyyatı saxlanılmışdır. Bu quyuların aşkar edilməsi ərazidə şəhərin yaranma dövrünədək intensiv yaşayışın olmasını sübut edən arqumentlərdir. Quyuların bir çoxunun dibində diametri 17-20 sm, dərinliyi 10-12 sm olan çuxurlar vardır. Çuxurların bəzilərində çürümüş, bir qismində isə yanmış ağac qalıqları (kömür) aşkar edilmişdir. Bütün bunlar qədim dövrdə taxıl məhsullarının saxlanması texnologiyasını öyrənməyə imkan verir (5, s. 6-11; 23, s. 11-12 ; 9, s. 411).

Dulusculuq ilə bağlı nadir tapıntı 2011-ci ildə birinci oval binanın mərkəzi hissəsində mədəni təbəqəninin stratiqrafiyasını müəyyənləşdirmək üçün aparılan qazıntılar zamanı aşkar edilmişdir. 100 $m^2$ sahədə alt qatlar qazılarkən e.ə. III-II əsrlərə aid mədəni təbəqədə dulus kürələrinin qalıqları aşkar edilmişdir (şək. 6). İlk dəfə olaraq Albaniya ərazisində bozumtul-qara rəngli təkayaq vazaların bişirildiyi kürə qalıqları və çox saylı qab qırıqları tapılmışdır. Vaxtilə antik dövrə aid kürələr Mingəçevirdə aşkar olunmuşdur (13, s. 137-138). Lakin onlar Qəbələdə tapılan kürələrdən fərqlənir. Burada olan kürələrin sahəsi çox böyükdür. Onların od yandırılan kameralarının yalnız döşəməsi və yan divarlarınn ən alt hissəsi izlənilir. Xeyli miqdarda sınmış və salamat təkayaq vazalar kürələrin birinin döşəməsində nizamsız qaydada tökülmüşdür. Görünür, onlar hələ kürədə olarkən kürə naməlum səbəbdənsə dağılmış və vazalar kürədə bişirilmək üçün qoyulan yuxarı kameradan od yandırılan alt kameraya döşəməyə tökülmüşdür. Kürələrin döşəməsi odun təsirindən yanaraq 1-2 sm qalınlığında şlaklaşmışdır. Bu kürələrdən altda və üstdə də tikinti təbəqələri izlənilir (6, s. 370).

**Antik dünyanın təsiri.** Antik dünyanın təsirini Albaniyanın tikinti texnikası ilə bərabər təsərrüfat həyatının müxtəlif sahələrində, sənətkarlıqda, xüsusilə saxsı qabların hazırlanmasında, ticarət və pul dövriyyəsində və s. izləmək olar. Arxeoloji tədqiqatlar zamanı Antik şəhər yerindən və ətraf ərazilərdən antik dövrə aid müxtəlif ölkələrə məxsus xeyli sayda sikkələrin tapılması, o cümlədən Albaniyada ellin pullarına bənzədilərək zərb edilən yerli nümunələr burada pul dövriyyəsinin yaranmasından, Albaniyanın beynəlxalq ticarətdəki rolundan və ellin ölkələri ilə olan əlaqələrindən xəbər verir

(14; 16, s. 177-196; 17, s. 16-32). Eyni zamanda Antik şəhər yerindən üzərində yunan əsatirlərinə xas sujetləri olan xeyli sayda möhür əksləri olan gil parçaları (bullalar) aşkar edilmişdir (3, s. 19; 13, s. 148-150). Bu tapıntılar Qəbələnin beynəlxalq ticarətdə daşıdığı mühüm rolunu subut edir.

Arxeoloji qazıntılardan antik dünya mədəniyyətinin təsirini özündə əks etdirən oynoxoyya, tək və üçayaqlı vaza, matra, kubok tipli saxsı qablar aşkar edilmişdir (22, s. 143-148). Adları sadalanan bu tip saxsı qab nümunələrinə Antik şəhər yeri ilə paralel, Qəbələnin digər ərazilərində də rast gəlinir. Albaniyanın antik dünya ölkələri ilə qurulan siyasi, mədəni və ticarət münasibətlərinin öyrənilməsində bu növ tapıntıların rolu böyükdür.

**Elmi yeniliyi.** Məqalədə Antik şəhər ərazisindəki arxeoloji tədqiqatların və Azərbaycan arxeologiyası üçün mühüm əhəmiyyət kəsb edən tarixi inkişafın qısa xarakteristikası verilmişdir. Tədqiqatlar zamanı bu ərazidə tarixən yaşayışın bir neçə mərhələsi (3 mərhələdə) faktlarla müəyyənləşdirilmişdir. Son illər ərzində ilk dəfə olaraq bu abidənin dəqiq stratiqrafiyası müəyyən edilmiş, şəhər mədəniyyətinin erkən antik dövrdən etibarən formalaşması, lakin son tunc-erkən dəmir dövründə Antik şəhər ərazisinin müəyyən hissələrində geniş və əhəmiyyətli dərəcədə inkişaf etmiş sıx yaşayışın olduğu təkzibedilməz arqumentlərlə sübut edilmişdir. Eyni zamanda qədim yaşayış yerindəki sosial məsələlərə yenidən diqqət yetirilərək əldə olunan nəticələr və problemin analitik təhlili əsasında şəhər mədəniyyətinin yaranması və daha geniş surətdə inkişaf edərək formalaşmasının xronologiyası bir qədər də dəqiqləşdirilmişdir. Midiya və Əhəmənilər dövrünə aid bəzi tapıntıların aşkarlanması (IV qazıntı sahəsinin alt təbəqəsindən əldə edilən keramika fraqmentləri və 2013-cü ildə təsadüfən aşkar edilən erkən antik dövrə aid torpaq qəbirlərin inventarı), o cümlədən e.ə. IV-III əsrlərə aid şəhər yerində əzəmətli tikililərin və inkişaf etmiş təsərrüfat həyatının izlənilməsi onu deməyə əsas verir ki, burada şəhər həyatının və şəhər infrastrukturunun meydana gəlməsi təsadüfi xarakter daşımamışdır. Bu proses Albaniyanın tarix səhnəsinə çıxmasından öncə baş vermişdir. Daha dəqiq desək, şəhər həyatının yaranması e.ə. V əsrin sonu – IV əsrin əvvəllərinə, formalaşaraq yüksək inkişaf etməsi isə e.ə. IV əsrin sonlarından – b.e. I əsrinin son rübünə təsadüf etmişdir.

Göründüyü kimi Antik Qəbələnin istər memarlıq tikili kompleksləri, istərsə də digər maddi mədəniyyət qalıqları Qafqaz Albaniyasının maddi irsinin, eyni zamanda Azərbaycan tarixinin və erkən şəhər sivilizasiyasının öyrənilməsində böyük elmi əhəmiyyət kəsb edir. Qafqazda anoloqu olmayan

belə bir abidənin tədqiq olunması Azərbaycan elminə böyük töhfədir. Ümumiyyətlə, Qəbələnin ən qədim dövrdən son orta əsrlərədək olan abidələr kompleksinə diqqət yetirdikdə onu görə bilərik ki, Azərbaycan tarixinin araşdırılması üçün bəşər övladının keçdiyi uzun bir tarixi dövrü burada ardıcıl və mərhələli şəkildə izləmək mümkündür.

## Ədəbiyyat


**1.** Atamın sağlığında...İlyas Babayev (1935-2017). Tərtibçi: F.İ.Babayev, Bakı, 2018, 80 s.

**2.** Babayev İ., Ağamalıyeva S., Mustafayev L., Heydərova Ü., Hüseynova S. Qəbələnin Antik şəhər ərazisininV qazıntı sahəsində aparılan arxeoloji tədqiqatlar // Milli Azərbaycan Tarixi Muzeyi-2018, Bakı, 2018, s. 226-233.

**3.** Babayev İ.A., Əhmədov Q.M. Qəbələ. Bakı, "Elm", 1981, 96 s.

**4.** Babayev İ.A., İsgəndərov E.Ə., Alışov N.Ə., Mustafayev L.X., İsmayılov R. Qəbələ arxeoloji ekspedisiyasının Antik Qəbələ dəstəsinin çöl-tədqiqat işləri haqqında // Azərbaycanda arxeoloji tədqiqatlar -2011, Bakı, 2012, s. 213-219.

**5.** Babayev İ., Mustafayev L. Antik şəhərin IV qazıntı sahəsindən əldə edilən Son Tunc – Erkən Dəmir dövrünə aid maddi mədəniyyət nümunələri//Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, mühafizəsi və bərpası". I Respublika elmi konfransının materialları, Bakı - 20.06.2017, s. 6-11.

**6.** Babayev İ.A., Mustafayev L.X., İsmayılov R., Alışov N.Ə. Beynəlxalq Qəbələ arxeoloji ekspedisiyasının Antik Qəbələ dəstəsinin apardığı çöl-tədqiqat işləri (Qəbələ rayonu) // Azərbaycanda arxeoloji tədqiqatlar-2012, Bakı, 2013, s. 367-374.

**7.** Babayev İ.A., Nəcəfova İ.M. Qəbələ arxeoloji tədqiqatlar tarixindən / Qəbələ arxeoloji ekspedisiyasının hesabatları (2005-2010-cu illər). Bakı, 2012, s. 55-63.

**8.** Babayev İ., Nəcəfova İ., Məmmədova B., Heydərova Ü., Mustafayev L. 2015-ci ildə Qəbələnin Antik ərazisində aparılmış arxeoloji tədqiqatların qısa hesabatı // Qəbələ arxeoloji ekspedisiyası: Hesabatlar, tapıntılar 2015-2016, Bakı, GBS, 2017, s.46-63.

**9.** Babayev İ.A., Nəcəfova İ., Mustafayev L.X., Alışov N.Ə., Hüseynov S.A. Qəbələ arxeoloji ekspedisiyası Antik Qəbələ dəstəsinin tədqiqat işləri haqqında // Azərbaycanda arxeoloji tədqiqatlar 2013-2014. Bakı, 2015, s. 407-414.

**10.** Mənsurov M. 2012-ci ildə Qəbələ rayonunda Paleolit dövrünə aid kəşfiyyat zamanı əldə olunmuş materiallar haqqında qısa məlumat / Qəbələ arxeoloji ekspedisiyasının hesabatları (2011-2012-ci illər). Bakı, CBS, 2014, s. 38-44.

**11.** Müseyibli N.Ə. Leylatəpə mədəniyyəti. Bakı, "Elm və təhsil", 2020, 576 s.

**12.** Zeynalov A. 2011-2012-ci illərdə Qəbələ rayonunda Paleolit dövrünə aid arxeoloji kəşfiyyat işləri haqqında hesabat / Qəbələ arxeoloji ekspedisiyasının hesabatları (2011-2012-ci illər). Bakı, CBS, 2014, s. 18-37.

**13.** Бабаев И.А. Города Кавказской Албании в IV в.до н.э.- III в.н.э. Баку «Элм», 1990, 236 с.

**14.** Бабаев И.А. Сборник статей по нумизматике. Баку, 2017, 144 с.

**15.** Бабаев И.А. Античная черепица Кавказской Албании // Советская археология, М., «Наука», 1974, №2, с. 48-59.

**16.** Бабаев И.А. Денежное обращение Кавказской Албании в эллинистическую эпоху (конец IV – первая половина I вв. до н.э.) // Az. Tarixi Muzeyi. Bakı, “Elm”, 2002, с. 177-196.

**17.** Бабаев И.А. Казиев С.М. Кабалинский клад монет эллинистической эпохи // Нумизматика и эпиграфика, Т. 9, М., «Наука», 1971, с. 16-32.

**18.** Исмизаде О. Кабала – столица древней Кавказской Албании / Вопросы истории Кавказской Албании. Баку, 1962, с. 29-37.

**19.** Керимов Г.В., Сафарова У.Р. Компьютерная реставрация археологических памятников на примере овальных сооружений Античной Габалы / “Tikintidə innovasiyalar” beynəlxalq elmi konfransın materiallari, Баку-Полтава, 20-21.05. 2021, с. 52-57.

**20.** ЛатышевВ.В. Известия древних писателей о Скифии и Кавказе. Часть первая. Греческие писатели (продолжение) // Вестник древней истории, М. – Л., 1948, 2 (24), с. 215-314.

**21.** Латышев В.В. Известия древних писателей о Скифии и Кавказе. Часть вторая. Латинские писатели (продолжение) // Вестник древней истории, М. – Л., 1949, 2 (28), с. 271-356.

**22.** Мустафаев Л.Х. Влияние культуры античного мира на керамическое производство Кавказской Албании // Гілея: науковий вісник : збірник наукових праць / гол. ред. В. М. Вашкевич. – К. : “Видавництво “Гілея”,2015. Вип. 97 (6). 489, с. 143-148

**23.** Мустафаев Л.Х., Гейдарова У.Р.Археологические находки эпохи поздней бронзы и раннего железа из Античного городища Габала // Проблемы истории, филологии, культуры. 4(62), Москва-Магнитогорск-Новосибирск, 2018, с. 7-16.

**24.** Страбон. География в 17 книгах. Перевод Г.А. Стратановского. М., Изд. «Наука», 1964, 944 с.

**25.** Шарифов Д. Раскопки в Ялойлутапя // Материалы Азгосмузея. Баку 1927 a, вып. 1, 43 с.

**26.** Шарифов Д. Обследование развалин Кабалы / Известия общества обследования и изучения Азербайджана, Баку, 1927 b, № 4, с. 174-185.

## Summary

## The role of archaeological investigations in Gabala in the study of the material culture of Caucasian Albania

**Mustafayev Lachin, Safarova Ulviya**

It is difficult to overestimate the role of archaeological study of the ancient Gabala in the study of the history of Caucasian Albania. Archaeological investigation on the ancient settlement of the ancient capital of Caucasian Albania, located in the place called Chakkaly and located between the rivers Garachay and Gochalanchay (Qabala district of Azerbaijan), began in 1967 at the initiative of I. Babayev. Excavation materials made it possible to trace

the formation of ancient urban culture and study the development of the city's economic life, in particular, handicraft production, architecture and construction. Data obtained by archaeologists expanded our knowledge about the funeral rites of the inhabitants of Caucasian Albania, about the political, economic and cultural ties with other ancient states. Some of the monuments discovered here, in particular, oval structures are unique in their kind.Changes in the material culture of Azerbaijan in the ancient period in a related form can be traced from the excavations in Gabala. The cultural layer revealed here of the Late Bronze – Early Iron Ages with a large number of objects of material culture of that era indicates that the settlement gradually grew and turned into an ancient city.Upon the whole, a phased and consistent study of the historical processes taking place in Azerbaijan for a long time can be successfully investigated on the basis of monuments identified during the archaeological excavations in Gabala, both the most ancient and medieval periods.
**Keywords:** Pottery, oval building, constuction, economy, influence of ancient culture.

## Резюме

## Археологические раскопки в Габале и их роль в изучении материальной культуры Кавказской Албании

**Мустафаев Лачин, Сафарова Ульвия**

Трудно переоценить роль археологического изучения древней Габалы в деле изучения истории Кавказской Албании. Исследования на Античном городище древней столицы Кавказской Албании, расположенном в местечке Чаккалы между реками Гарачай и Гочаланчай на территории современного Габалинского района Азербайджана, начались в 1967 году по инициативе И.Бабаева. Материалы раскопок позволили проследить становление античной городской культуры и изучить развитие хозяйственной жизни города, в частности, ремесленного производства, архитектуры и строительного дела. Сведения, добытые археологами, расширили наши знания о погребальных обрядах жителей Кавказской Албании, о политических, экономических и культурных связях с другими античными государствами. Некоторые обнаруженные здесь памятники, в частности, овальные сооружения являются уникальными в своем роде. Изменения, происходившие в материальной культуре Азербайджана в античный период в связанной форме можно проследить по материалам раскопок в Габале. Выявленный здесь культурный слой эпохи поздней бронзы – раннего железа с большим количеством предметов материальной культуры той эпохи свидетельствует о том, что поселение постепенно разросшись, превратилось в античный город. В целом, поэтапное и последовательное изучение исторических процессов, происходящих в Азербайджане на протяжении длительного времени с успехом можно изучать на основании памятников, выявленных в ходе археологических раскопок Габалы, как самого древнего, так и средневекового периодов.

**Ключевые слова:** Керамика, овальное сооружение, строительство, хозяйство, влияние античной культуры.



**Şəkil 1.** Antik şəhər yeri. III və IV qazıntı sahələrinin aerofotosu.



**Şəkil 2.** Antik şəhər yeri. IV qazıntı sahəsi. Son tunc – erkən dəmir dövrünə aid təbəqədə izlənilən taxıl quyuları.



**Şəkil 3.** Antik şəhər yeri. V qazıntı sahəsində aşkar edilən 5 № li oval tipli tikilinin qapı yeri və divar qalıqları.



**Şəkil 4. Antik şəhər yeri. III qazıntı sahəsi. Konservasiya edilmiş 1№ li oval tipli tikilinin aerofotosu.**



**Şəkil 5.** Antik şəhər yeri. III qazıntı sahəsi. 2№ li oval tipli tikilinin altında aşkar edilmiş e.ə. IV əsrə aid şərab anbarı.



**Şəkil 6.** Antik şəhər yeri. III qazıntı sahəsi. 1 № li oval tipli tikilinin altındakı təbəqədən aşkar edilmiş dulus kürələrinin qalıqları və qara rəngli saxsı qab fraqmentləri.